# Ağdam – yenidən qurulacaq müasir şəhər

**44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında igid oğullarımız tarixi Qələbəyə imza atdılar. Düşmənə elə bir zərbə vuruldu ki, bu gücün qarşısında tab gətirməyib, kapitulyasiya aktına imza atdı.**

Keçmiş sovet dönəmində Ağdam rayonu həm də sənaye mərkəzi kimi inkişaf edərək İttifaq miqyasında tanınıb. Şəhərdə 17 sənaye, 12 nəqliyyat müəssisəsi var idi. Burada ət kombinatı, xalça fabriki, rayonlararası təchizat idarəsi, dəzgahqayırma, metiz-furnitur və rayonlararası traktor təmiri zavodları, taxıl məhsulları kombinatı, yük və nəqliyyat xidməti avtobazaları, 4 nəqliyyata texniki xidmət idarəsi fəaliyyət göstəririb. Taxıl məhsulları kombinatı 80 min tonluq elevator, istehsal gücləri 245 ton olan dəyirman və çörək zavodu, 640 tonluq yem zavodundan ibarət idi.

Ağdamda istehsal olunan məhsullar nəinki Azərbaycanın, eləcə də keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə göndərilib. Burada, həmçinin yağ-pendir, konserv, şampan, şərab, barama zavodları, elektrik lampaları istehsalı fabriki də var idi. Rayonun digər ərazilərində isə iki ədəd tikinti materialları kombinatı, 11 şərab zavodu fəaliyyət göstərib. 1993-cü ilin iyul ayında Ağdam şəhərini işğal edən erməni canilər bütün bu var-dövləti qarət ediblər və sonra oranı xarabalığa çeviriblər. Ağdamda bütün infrastruktur, yaşayış evləri, sosial obyektlər, tarix-mədəniyyət abidələri kimi, sənaye müəssisələri də talan edilib, dağıdılıb.

Bu il mayın 28-də Prezident İlham Əliyev işğaldan azad edilən Ağdama səfəri zamanı rayon ictimaiyyəti ilə görüşündə rayonun Baş planını təqdim etdi və bildirdi ki, Ağdam dünyanın ən gözəl şəhərlərindən biri olacaq, həm də qeyri-adi gözəlliyi ilə başqalarından seçiləcək. O vaxtdan etibarən Ağdamda tikinti-quruculuq işlərinə başlanılıb. Hazırda Bərdə-Ağdam şosse və dəmir yolunun inşası sürətlə davam etdirilir. Qeyd edək ki, Bərdə-Ağdam avtomobil yolu işğaldan azad edilmiş Ağdam şəhərinə qədər inşa edilir. Avtomobil yolu Bərdə və Ağdam şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən çox yaşayış məntəqəsini əhatə edəcək. Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

"Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının inşası artıq başa çatıb. Hər iki yarımstansiyaya elektrik xətti çəkilib. Bir neçə yaşayış binasının layihəsi hazırlanıb və bəzilərində torpaq işlərinə başlanılıb. Prezidentin təməlini qoyduğu 1 nömrəli məktəbdə tikinti işləri aparılır.

Ermənistanın vəhşiliyi nəticəsində "Qafqazın Xirosiması"na və "Ruhlar şəhər"inə çevrilmiş Ağdamın küllərindən yeni bir şəhər doğulur. Ağdamın xarabalıqları üstündə müasir bir şəhərin təməli qoyulub. Ermənilərin dağıtdıqları yaşayış və ictimai binaların bir çoxu olduğu kimi saxlanacaq, açıq havada muzey kimi qorunacaq,erməni vəhşiliyi qonaqlara və turistlərə nümayiş olunacaq. Ağdam həm də "yaşıl enerji" zonasına çevriləcək.

Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Prezident İlham Əliyevin Fərmanı böyük tarixi əhəmiyyət daşıyır və eyni zamanda, yeni məqsədlərin həyata keçirilməsinə geniş imkanlar açır. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etmək qarşıda dayanan ən ümdə məsələdir. Özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafı doğrudan da, qürurvericidir, dövlətimizin gücünü göstərir.

İşğaldan azad edilən yurd yerlərinə köçəcək insanların iş yerləri ilə təmin olunmaları üçün Ağdam Sənaye Parkının inşasına başlanılıb. Qeyd edək ki, bu sənaye parkı Qarabağda ilk nümunədir. Prezident İlham Əliyevin imzaladığı "Ağdam Sənaye Parkının yaradılması haqqında" Fərmanda bildirilir ki, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyata sürətli inteqrasiyasının təmini, dayanıqlı inkişafı, eləcə də layiqli yaşayış şəraitinə nail olunması üçün genişmiqyaslı quruculuq və bərpa işləri həyata keçirilir. İşğaldan azad olunmuş Ağdam rayonunun əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları və digər mühüm logistika potensialının mövcudluğu rayonda müasir infrastruktura malik sənaye parkının yaradılmasını zəruri edir. Sənaye parkının tikintisi üçün Ağdam şəhəri yaxınlığında 190 hektar torpaq sahəsi ayrılıb. Sənaye parkı Ağdam şəhərinə çəkilməsi planlaşdırılan əsas avtomagistral və dəmir yolu kommunikasiyalarının kəsişməsində yerləşəcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkı sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastrukturu və idarəetmə qurumları olan, müasir texnologiyaların tətbiqi ilə rəqabətə davamlı məhsul istehsalına, habelə xidmətlərin göstərilməsinə, bir sözlə iqtisadi inkişafa mühüm töhfə verəcək. Ümumilikdə isə Ağdam Sənaye Parkında İqtisadi Zonaların İnkişafı Agentliyi üçün mobilizasiya, qida sənayesi müəssisələri, kiçik istehsal və xidmət müəssisələri, istehsal sahəsi, tikinti materiallarının satışı, TIR parkı, texnika təmiri sahəsi, texniki zona və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuş sahələr olacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili də nəzərdə tutulub.

Yaxın zamanlarda ilk bir neçə belə müəssisənin də tikintisinə başlanacaq. Ağdamın strateji coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi perspektivini genişləndirir. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən yaradılan bu park Azərbaycan ərazisində beşinci Sənaye Parkı olacaq.




Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib ki, Ağdamda quruculuq işləri Baş plana uyğun olaraq sürətlə aparılır. Görülən bütün işlər Böyük Qayıdışın tezliklə reallaşacağından xəbər verir.

Sənaye parkının tikintisi mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə inzibati binalar və parkın işçiləri ilə rezidentləri üçün yaşayış yerləri salınacaq. Minaların təmizlənməsindən sonra, parkın 76 hektarlıq ərazisində ilk tikinti işlərinin 2022-ci ildə başlaması nəzərdə tutulub. Ağdam Sənaye Parkının yaradılması Azərbaycanda artıq fəaliyyət göstərən dörd parkın uğurlu təcrübəsi və beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçiriləcək.

Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər üzrə işçi qrupunun məlumatına əsasən, bu günə qədər Ağdam Sənaye Parkı üçün artıq 12 potensial rezident seçilib. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar 700-dən çox müraciət daxil olub. Göründüyü kimi, viranəyə çevrilmiş torpaqlarda böyükmiqyaslı quruculuq işləri başlayıb. Gözlərimiz qarşısında yeni bir Ağdam - bənzəri olmayan bir şəhər tikilir.

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2021.- 7 dekabr.- S.11.